*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    20 iyul 2019-cu il  № 56 (2373)    Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

## Yüksək döyüş hazırlığı Qələbəyə zəmanətdir



Bir yay səhəri Vətənimizin dağlar qoynunda yerləşən dilbər guşələrindən birindəyik. Günəşin doğmağına baxmayaraq, qızmar yay istisindən əsər-əlamət yoxdu. Təbiətin əsrarəngiz gözəlliyi ruhumu oxşayır, ona sığal çəkir. Dağ döşlərində, yalyamaclarda bitən və minbir dərdə çarə olan şəfalı otlar, ətrafa yaşıllıq və əsrarəngiz gözəllik bəxş edən ağaclar, ormanlardan xışıltı ilə keçən yellər, bu yerləri dövrələyən dağlar, başımızın üstündə parlayan istisini bizdən əsirgəməyən Günəşin hərarətindən, göy üzünü örtməyə həvəsiyən buludların çəkingənliyi, bizi ovsunlayıb, özünə heyran edib. Sevdim bu yerləri, sevdalandım bu yerlərə...

Hər daşda, hər ağacda, hətta dağ çayında da uşaq yaşlarımda gördüyüm və gözəlliyini unutmadığım, unutmayacağım Qarabağımızın gözəllik tacı bildiyimiz Şuşamızla bir eynilik axtarmağa çalışıram. Çalışıram ki, gördüklərimi yaddaşımda qalanlarla bir sıraya düzüm, onların yollarını kəsişdirim, bir-birinə qovuşdurum. Həmin o yolla da gedim Şuşaya... Çıxım Cıdır düzünə... Laçın yaylaqlarını seyr edim...

Bu təəssüratların təsiri altında "N" hərbi hissəsində ilk olaraq zabit Samir Əhmədovla görüşürük. Zabit bildirir ki, bu gün Azərbaycan Ordusu, sözün hər iki mənasında, çox yüksək səviyyədədir. "Ordumuz həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də mənəvi-psixoloji cəhətdən qabaqcıl ordular sırasındadır. Eyni zamanda ön xətdə yerləşən hərbi hissələrin şəxsi heyətinin əksəriyyəti yüksəkliklərdə qərar tutaraq Vətən torpaqlarını qoruyur. Bizləri sevindirən başlıca cəhətlərdən biri də ordumuzdakı qələbəyə köklənmiş yüksək əhval-ruhiyyədir. Əsgər və zabitlərimizin məsləki də, amalı da Vətən sevgisindən başlanır. Dünyada Vətən məhəbbəti qədər müqəddəs, Vətən sevgisi qədər ülvi bir hiss yoxdur. Hərbi hissəmizin bütün şəxsi heyəti Vətənini bütün qəlbi ilə sevir və onun uğrunda son damla qanına qədər vuruşmağa hazırdı. Şəxsi heyətimiz həyatının mənasını Vətənə xidmət etməkdə görür. Çünki Vətən bizlərə layiqincə yaşamaq, son ana qədər onu cəsarətlə qorumaq üçün əmanət edilib. Vətən qarşısında hamı bütün həyatını və varlığını borclu sayır. Bu, Vətən uğrunda xidmət edən, canından və qanından keçməyə hazır olan bütün hərbi qulluqçuların amalıdır".

Qısa bir zaman kəsiyindən sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əli Kərimovun idarə etdiyi "UAZ" markalı avtomobillə səngərə yola düşürük. Yolda zabit Samir Əhmədov qarşıdakı dağı göstərərək bildirir ki, posta çatmaq üçün çox çətin dağ yolunu qət etməli və kifayət qədər hündürlüyə qalxmalıyıq. Uzaqda olan dağlar sirli bir qala kimi görsəndi mənə və elə hesab etdim ki, səngərə qaş qaralanacan ancaq gedib çatmaq olar. Yolu qət etdikcə anladım ki, dağlara uzaqdan, aşağıdan yuxarı baxmaq nə qədər sirli görünürdüsə, indi bu əzəmətli qayaların qoynunda olub, düzlərə yuxarıdan aşağı baxmaq o qədər zövqverici və gözəldir... Adama elə gəlir ki, əlini atsan buludlara çatar. Bəzən elə olur ki, sən zirvədə olanda aşağıdakılarla sənin arana dümağ lopa-lopa buludlar girir və sən qalırsan buludların üzərində...

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycanın Müdafiə naziri İran İslam Respublikasının ölkəmizdəki səfiri ilə görüşüb



İyulun 18-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri Azərbaycan-İran münasibətlərinin inkişafında ölkə başçılarının görüşlərinin mühüm rol oynadığını qeyd edərək hərbi sahədə də əməkdaşlığın uğurla davam etdiyini vurğulayıb.

Nazir "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində ölkəmizin ərazi sularında təşkil olunacaq "Dəniz Kuboku-2019" müsabiqəsində Azərbaycan və İran hərbi dənizçilərinin birgə iştirakını Xəzər dənizinin təhlükəsizliyinin təmin edilməsinə töhfə kimi dəyərləndirib.

Diplomat isə öz növbəsində iki ölkə arasında hərbi sahədə əməkdaşlığın inkişaf etməsinin regional təhlükəsizliyin təmin olunmasında vacib amil olduğunu qeyd edib.

Tərəflər hərbi sahədə əməkdaşlığın genişləndirilməsi və hər iki ölkənin hərbi nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili barədə fikir mübadiləsi aparıblar.

Görüşdə Azərbaycan ilə İran arasında hərbi əməkdaşlığın mövcud vəziyyəti, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əlaqələrin inkişaf perspektivləri, eləcə də regional problemlər müzakirə olunub.

# Müdafiə naziri Ukraynanın ölkəmizdə yeni təyin olunmuş səfiri ilə görüşüb



İyulun 18-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ukraynanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona Azərbaycan ilə Ukrayna arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Azərbaycan ilə Ukrayna arasında hərbi əməkdaşlığın həm ikitərəfli formatda, həm də NATO-nun müxtəlif proqramları çərçivəsində həyata keçirildiyini qeyd edən Müdafiə naziri bu əməkdaşlığın davam etdiriləcəyinə ümid etdiyini bildirib.

Ölkəmizdə diplomatik fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən səfir Azərbaycan-Ukrayna əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib.

# "Azərbaycan-İran əlaqələri heç zaman belə yüksək səviyyədə olmayıb"

AZƏRTAC xəbər verir ki, bu sözləri yerli mətbuata müsahibəsində İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə deyib.

Səfir nəzərə çatdırıb ki, məhz Prezident Həsən Ruhani və Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində siyasi, iqtisadi, mədəni və digər sahələrdə rəsmi Bakı ilə Tehranın münasibətləri dostluq və qardaşlıq səviyyəsinə yüksəlib.

Diplomat qeyd edib ki, İran həmişə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib. Onun sözlərinə görə, Azərbaycan ilə İran arasında oxşar cəhətlər çoxdur.

Səfir bildirib ki, dövlətlər arasındakı münasibətlərin inkişafı xalqların rifahının yüksəlməsinə xidmət edir.

İranlı diplomat nəzərə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev çox uzaqgörən addım ataraq İran, Azərbaycan və Rusiya prezidentlərinin üçtərəfli görüşlər keçirməsinin əsasını yaradıb. Bu görüşlər regional əməkdaşlıq və regional təhlükəsizliyin davamlı olması üçün olduqca əhəmiyyətlidir.

# Yüksək döyüş hazırlığı Qələbəyə zəmanətdir

(Əvvəli 1-ci səhifədə)

İki saatlıq bir yolu qət etdikdən sonra dağın ən uca zirvəsində, buludların üzərində yerləşən ürəyi qisas hissi ilə alışıb yanan, torpaqlarımızı düşməndən azad etmək, şəhidlərimizin qisasını almaq istəyi ilə xidmət edən Azərbaycan əsgərinin yanında, səngərdəyik. Bizi qarşılayan zabit Fuad Hüseynov düşmənlə təmas xəttində yerləşən müvafiq postda etibarlı müdafiə sisteminin qurulduğunu, xidmət üçün zəruri olan hər bir şəraitin olduğunu qeyd edir. "Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir silah-sursatla təminatına imkan verir. Onun nəticəsidir ki, bu gün dayaq məntəqəsində və onun əhatə etdiyi postlarda nümunəvi xidmət şəraiti yaradılıb. Ərazinin strateji əhəmiyyəti nəzərə alınaraq qurulan postda düşmənin istənilən hücumunun qarşısını almaq məqsədilə müxtəlif qurğular və maneələr yaradılıb. İstənilən səviyyədə rabitə əlaqəmiz, müasir döyüş texnikalarımız, artilleriya qurğularımız, müşahidə cihazlarımız var ki, bu da postda etibarlılığı təmin edir."



Zabit Samir Əhmədov bildirir ki, bu nailiyyət ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir: "Bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət yetirir. Vaxtilə bu ərazilərdə əsgərlər çox ağır şəraitdə xidməti vəzifələrini yerinə yetirirdilər. Lakin ölkəmiz inkişaf etdikcə ordunun əsgəri-məişət şəraiti və silah-sursat təminatı da xeyli yaxşılaşdırıldı. Ucqar dağlıq ərazidə yaradılan xidməti şərait də ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Sosial-məişət problemlərinin həll olunması və hərbi hissələr üçün yaradılan şərait qarşıya bir vəzifə qoyur. O da xidməti vəzifələrini layiqincə yerinə yetirmək, Vətən sərhədlərini və torpaqlarımızı etibarlı müdafiə etməkdən ibarətdir.

"Vətən o zaman Vətən olur ki, o həm qorunur, həm də Vətən torpağından səmərəli istifadə olunur", - deyə zabit sözünə davam edir. - Vətən torpağının qorunması, eyni zamanda, torpaqlardan səmərəli istifadə olunması bu gün ölkəmizin vətəndaşlarının və ordunun üzərinə düşən vəzifələrdir. Çünki torpaqlarımız qorunursa, insanlar da öz vəzifələrini, işlərini rahat yerinə yetirə biləcək, zəhmətləri ilə ölkəmizin inkişafına töhfə verəcəklər. Bu gün yüksək dağlıq şəraitdə yerləşən postun maddi-texniki təminatı, əsgərlərin məişət və xidməti şəraiti müasir tələblər səviyyəsində qurulub. Günün nizam qaydalarına uyğun olaraq xidmətin təşkilinə, əsgərlərin normal qidalanmasına, fiziki hazırlığına və sağlamlıqlarının qorunmasına xüsusi diqqət yetirilir.

Əsgər Rəşad Rzayev qeyd edir ki, belə bir yüksəklikdə hərbi xidməti nümunəvi təşkil etmək üçün hər cür şərait yaradılıb. "Müasir yaşayış və xidmət şəraiti hər bir əsgər və zabitin döyüş ruhunu daha da artırır. Fəxr edirik ki, Vətənimiz Azərbaycanın müdafiəsində dayanmışıq. Yüksək döyüş ruhumuz vardır. Əsgərlər yüksək döyüş qabiliyyətinə və mənəvi-psixoloji hazırlığa malikdir. Şəxsi heyət istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə qadirdir. Düşmənlə təmas xəttində xidmətin normal təşkili üçün yaradılan şərait əsgər və zabitlərimiz tərəfindən razılıq hissi ilə qarşılanır. Onların məsuliyyətini daha da artırır. Eyni zamanda, bugünkü görüş əsgərləri qürurlandırır, onları Vətənin keşiyində ayıq-sayıq dayanmağa sövq edir."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ceyhun Ələsgərov zabitin sözünə qüvvət olaraq bildirir ki, Vətənə, onun çiçəklənməsinə xidmət etmək, torpağımızı qorumaq bizim vətəndaşlıq borcumuzdur. "Ərazisinin 20 faizi düşmən əsarəti altında olan Vətənimiz bizdən daha böyük hünərlər gözləyir. Bütün gücümüzlə bu cənnət diyarı göz bəbəyimiz kimi qorumalı, onun inkişafı üçün əlimizdən gələni etməliyik. Ata-babalarımız bu torpaqlarda yaşamış, onu becərmiş, qorumuş, uğrunda vuruşmuşlar. Onlar qədim torpaqlarımız üçün canlarından keçib, şəhidlik zirvəsinə yüksəlmişlər. Azərbaycanın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimiz bizlər üçün örnəkdir. Hər bir Azərbaycan əsgəri qəhrəmanlarını tanıyır, onların keçdiyi həyat yolunu yaxşı bilirlər. Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçən qəhrəmanlarımız bizim qürurumuzdur. Bizlər də onların yollarını davam etdirməyə hazırıq."

"Bundan sonra torpaqlarımızın azadlığı haqqında düşünmək və danışmaq olar", - deyə əsgər Rahid Hüseynov qeyd edir. - Bu gün Azərbaycan Ordusu düşmənin bütün təxribatlarının qarşısını yerindəcə alır və daim düşməni vahimə içərisində saxlayır. Aprel döyüşləri də bunu sübut etdi ki, istənilən zaman ordumuz torpaqlarımızı azad etməyə qadirdir və yüksək döyüş hazırlığına malikdir. Bu gün Azərbaycan əsgəri Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan azad olunması üçün müqəddəs savaşa tam hazırdır.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinlərinin və psixoloqların toplantısı keçirilib

*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "2019-cu tədris ilinin birinci yarımili ərzində ideoloji iş və mənəvi-psixoloji təminat, hərbi intizamın möhkəmləndirilməsi sahəsində görülmüş işlər və bu istiqamətdə qarşıda duran vəzifələr" mövzusunda hərbi hissə və birləşmələrin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinlərinin və psixoloqların toplantısı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev toplantıda çıxış edərək qeyd edib ki, 2019-cu tədris ilinin birinci yarımili ərzində əvvəlcədən təsdiq olunan planlar həyata keçirilib. Nazir müavini hərbi qulluqçuların fərdi tərbiyəsinə xüsusi diqqət yetirildiyini, onların hərbi kollektivdə şəxsiyyət kimi formalaşması üçün məqsədyönlü tərbiyəvi tədbirlər həyata keçirildiyini vurğulayıb.

"Bu işdə daha yüksək nəticələrin əldə olunması üçün ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinləri və psixoloqlar daha məsuliyyətli olmalı, peşə vərdişlərinizi daima artırmalısınız. Əminəm ki, siz növbəti tədris dövründə qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələcək və öz bacarıqlarınızı əsirgəməyəcəksiniz", - deyə general-leytenant K.Vəliyev bildirib.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Rasim Əliyev ötən yarımil ərzində hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji təminat, hərbi intizamın yüksəldilməsi, hərbi qulluqçuların asudə vaxtının düzgün təşkili, sosial müdafiəsinin gücləndirilməsi və digər sahələrdə görülmüş işlər barədə ətraflı çıxış edib.

Sonra ordumuzda ideoloji iş və mənəvi-psixoloji təminatın səviyyəsinin artırılması, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində komandir heyətinin məsuliyyəti, hərbi intizamın möhkəmləndirilməsi, hərbi xidmətdə təhlükəsizliyin təmin edilməsi və digər mövzularda müzakirələr aparılıb və növbəti yarımildə qarşıda dayanan əsas vəzifələrdən danışılaraq müvafiq tapşırıqlar verilib.

*Nümunəvi xidmət*

# "Şərəfli peşəmlə qürur duyuram"



Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunması, gələcək nəsillərə ötürülməsi ondan da çətin və mürəkkəb prosesdir. Tarixən dövlətin ərazi bütövlüyünün qorunmasında güclü rəhbərlə yanaşı, güclü ordunun olması vacib amillərdəndir. Ordunun gücü sıralarında xidmət edənlərin ruh yüksəkliyindən, döyüş hazırlığından, qəlbində Vətən, millət sevgisi olan zabit, gizir və əsgərlərindən birbaşa asılıdır. Qəlbində Vətən sevgisi olan hər bir vətəndaş ordusu ilə qürur duyur, onun qüdrəti ilə öyünür.

Təqdirəlayiq haldır ki, son illər ordumuzun qüdrətindən ruhlanan gənclər hərb peşəsinə maraq göstərirlər. Müddətli hərbi xidmətini bitirən hər bir Azərbaycan gənci ömrünü hərbə bağlayır. Çavuş Şahin Hüseynov da Vətəninə sidq ürəkdən bağlı olan gənclərimizdən biridir.

Öyrənirik ki, Şahin artıq üç ildir ordu sıralarında xidmət edir. "Müddətli hərbi xidmətimdən 13 il keçməyinə baxmayaraq, həmin günlər yaddaşımda silinməz izlər qoyub. Əsgərlər arasında səmimi münasibət var idi. İlk gündən komandirlərimizin diqqət və qayğısı ilə əhatə olunmuşduq. 2016-cı ilin Aprel döyüşləri zamanı könüllü olaraq ordu sıralarına qatılmaq üçün müraciət etdim. Ancaq ordumuzun yetərincə qüvvəsi olduğunu və ehtiyac yaranarsa çağıracaqlarını bildirdilər. Aprel döyüşlərində şəhidlərimizin göstərdikləri qəhrəmanlıqlar məni ordu sıralarına səsləyirdi. Sanki illərdir bunu gözləyirdim. Mütəmadi olaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün kursların nə vaxt başlayacağını izləyirdim. Nəhayət, həmin an yetişdi və mən müvafiq kursu bitirdikdən sonra arzuma çatdım. İndi kursda mənimsədiklərimi əsgərlərimə aşılayıram", - deyə çavuş bildirdi.

- Dayım Əlövsət Quliyev Qarabağ döyüşlərinin iştirakçısıdır, - deyə çavuş Şahin Hüseynov söhbətinə davam etdi. - O həmişə ermənilərin törətdikləri vəhşilikdən bəhs edərdi. Aprel döyüşlərində o da mənimlə yanaşı, könüllü şəkildə müraciət etmişdi. Hər dəfə evə gedəndə gedib ona baş çəkirəm. Məni formada görəndə fərəhləndiyini görürəm. Heç vaxt yadımdan çıxmaz, ilk dəfə məni hərbi mundirdə görəndə boynumu qucaqlayaraq, onun yarımçıq qoyduğu döyüşü başa çatdıracağımı arzuladı. Oğlum Yusifin balaca olmasına baxmayaraq, ondan soruşanda ki, atan harada işləyir?, deyir ki, atam əsgərdi. Oğlumun mənə baxışlarını görəndə daha da qürurlanıram. Nə qədər şərəfli və məsuliyyətli peşənin sahibi olduğumu anlayıram.

Şahinlə söhbətimiz zamanı öyrənirik ki, hərbi hissədə onlar üçün hər cür sosial-məişət şəraiti yaradılıb. Yuxarı rəhbərliyin diqqəti və qayğısı ilə əhatə olunan əsgərlərimizin döyüş ruhu yüksəkdir. Onlar hər an Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə işğalda olan torpaqlarımızı azad etməyə, xalqımıza qələbə sevincini yaşatmağa hazırdırlar.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Hərbi birlikdə təlim-metodiki toplantı



Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına əsasən, hərbi birliyin birləşmə və hərbi hissələrinin tabor, divizion komandirləri və onların müavinləri ilə təlim-metodiki toplantı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantıya cəlb edilən zabitlərin döyüş hazırlığı üzrə nəzəri bilikləri, praktiki vərdişləri, sürücülük və atəş bacarıqları yoxlanılıb. Fiziki hazırlıqdan və müxtəlif ixtisaslar üzrə məqbullar götürülən zaman zabitlər yüksək nəticə göstəriblər.

Təlim-metodiki toplantının sonunda tabor, divizion komandirləri və onların müavinləri gecə şəraitində döyüş atışlı təlim zamanı bölmələrin və atəşin idarə edilməsi üzrə tapşırıqları icra ediblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

*19 iyul 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Torpağı vətəndaşlar Vətənləşdirir"

*Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin qərargahında Müdafiə Nazirliyinin nümayəndələri ilə veteranların görüşü keçirildi. Öncə ümummilli lider Heydər Əliyevin, torpaqlarımızın ərazi bütövlüyü və dövlətimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.*



Çıxış edən Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədri Füzuli Rzaquliyev Vətən Müharibəsi Veteranları İctimai Birliyi haqqında məlumat verdi:

- Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi (AVMVİB) 1994-cü ildə təsis edilib və Azərbaycan Respublikasında müharibə iştirakçılarının üzv olduğu ən böyük təşkilatlardan, ictimai birliklərindən biridir. İctimai Birlik vətənpərvərlik mövzularında mədəni və sosial mözvulu silsilə tədbirləri həyata keçirir, mütəmadi olaraq şəhid ailələrini, Qarabağ müharibəsi iştirakçılarını, ümumilikdə Azərbaycan üzrə bütün veteranları ziyarət edir. Eyni zamanda dövlət tədbirlərində, yerli icra hakimiyyəti orqanları, o cümlədən uşaq bağçaları, orta ümumtəhsil məktəbləri və universitetlər ilə birlikdə mədəni-kütləvi tədbirlərin hazırlanmasında və keçirilməsində də yaxından iştirak edirik. Bu gün AVMVİB cəmiyyətimizdə istər Böyük Vətən müharibəsi, istərsə də Qarabağ müharibəsi veteranlarının yerini yüksək tutur, onları qiymətləndirir və sosial fəaliyyətlərini gücləndirmələri üçün müxtəlif tədbirlər həyata keçirir. Azərbaycanda böyüyən gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi pedaqoqlarla yanaşı, bizim də vəzifə borcumuzdur. Buna görə də bu istiqamətdə bir sıra tədbirlər keçirir, tədris ocaqlarını ziyarət edir, şagird-tələbə kontingenti qarşısında çıxışlar edərək, müharibə qəhrəmanlarımızın xatirələrini onlarla bölüşürük. Formalaşan nəslin dövlətçiliyimiz ətrafında sıx birləşməsində, azərbaycançılıq ideologiyası əsasında tərbiyələnməsi istiqamətində səylərimizi əsirgəmirik.

Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev hərbçilərə həmişə diqqət və qayğı ilə yanaşıb, müharibə veteranları, şəhid ailələrinə xüsusi diqqət göstərilməsi onun tərəfindən birbaşa vəzifə kimi bütün dövlət strukturlarının qarşısına qoyulub. "Ölkə rəhbərliyi tərəfindən müharibə veteranları və şəhid ailələrinə göstərilən ehtiram və qayğı gündən-günə artırılır, onların həyat şəraitinin, sosial təminatlarının yaxşılaşdırılması üçün konkret tədbirlər görülür. Bu gün hər kəsə bəllidir ki, ordumuzun döyüş hazırlığı və təminatı yüksək səviyyədədir. Ən müasir silahlarımız və texnikalarımız var. Lakin şəxsi heyətin mənəvi-psixoloji ruhu yüksək olmasa, heç bir zəfərdən danışmaq olmaz. Əsgəri xidmət keçən hər bir şəxs vətənpərvər, dövlətinə, millətinə bağlı olmalı, ürəyi Vətən sevgisi ilə döyünməlidir. Bu istiqamətdə əməkdaşlığımızı daha da möhkəmlətməliyik. Müdafiə Nazirliyi bu işdə dəstəyini heç zaman əsirgəmir, hərbi hissələrdə sizinlə birgə görüşlərin, mədəni-kütləvi tədbirlərin keçirilməsini daim müsbət qarşılayır."

Çıxışına davam edən general-mayor Rasim Əliyev vurğuladı ki, gənclərin vətənpərvərlik ruhunda böyüməsində cəmiyyətin də üzərinə böyük işlər düşür. "Torpağı Vətənə çevirən onun üzərində yaşayan insanlardır, torpağı vətəndaşlar vətənləşdirir. Cəmiyyətin hər bir üzvü harada çalışmasından, hansı peşəyə sahib olmasından asılı olmayaraq ümummilli lider Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq ideologiyasına sadiq olmalı, xidmətini bu ideologiyanın tələblərinə uyğun qurmalıdır. Vətənpərvər cəmiyyətdə böyüyən gənclər də Vətənini sevir, onun keşiyində inamla dayanır. Unutmayaq ki, ordunun əsl gücü xalqın güvəncidir. Orduya olan güvənc və inam gücümüzə güc qatır, gələcək Böyük Qələbəmizin təminatçısıdır. Bu gün hər birimiz təəssüflənirik ki, hələ də torpaqlarımızın 20 faizi işğal altındadır. Lakin, hər birimiz əminliklə deyə bilərik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə gün-gündən güc və qüdrətini artıran, döyüş hazırlığını tam şəkildə formalaşdıran və mənəvi-psixoloji hazırlığı yüksək olan ordumuz torpaqlarımızı tezliklə işğaldan azad edəcək. Ali Baş Komandanımızın da dediyi kimi: "Zaman bizim xeyrimizə işləyir"."

Tədbirdə çıxış edənlər şəhid ailələrinə, əlillərə, veteranlara dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışaraq, ölkə rəhbərinə öz dərin minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, müharibə veteranlarının tək bir amalı və arzusu var - Qarabağın işğaldan azad edilməsi. "Biz bu yolda Ali Baş Komandan cənab İlham Əliyevə inanırıq. Hər birimiz potensial bir döyüşçü kimi torpaqlarımızın azad edilməsi üçün veriləcək əmri gözləyirik", - qazilər dedilər.

Dəyirmi masa ətrafında keçən görüşün gedişində son illər ölkəmizdə əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdən, aztəminatlı, ailə başçılarını itirən, eləcə də şəhid ailələri, müharibə əlilləri və veteranları, xüsusi qayğıya ehtiyacı olanların dövlətin diqqət və qayğısı ilə tam şəkildə əhatə olunduğundan danışdılar. Sonda xatirə şəkli çəkildi.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Üzü gələcəyə doğru

*Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə gəlişinin 50-ci ildönümü ilə əlaqədar keçirilən tədbirlərdə şəxsi heyət Heydər Əliyev mərkəzləri, muzeyləri və abidələri ziyarət edib, hərbi hissələrdə Ulu Öndərin şərəfli həyat yolu və fəaliyyəti haqqında məruzələr dinlənilib, filmlər, videoçarxlar təqdim olunub, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonun İdeoloji və Mədəniyyət Mərkəzinin rayon mədəniyyət müəssisələri kollektivlərinin iştirakı ilə müxtəlif mədəni-kütləvi tədbirlər təşkil olunub.*





Böyük tarixi şəxsiyyət Heydər Əliyev deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Ulu Öndərin bu kəlamı hər bir azərbaycanlı üçün həyat, ömür, yaşam fəlsəfəsidir - ömrünü xalqın gələcəyi naminə yaşamalısan.

Ulu Öndərin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 illiyi ilə əlaqədar "N" hərbi hissəsində də tədbir keçirildi. Digər tədbirlər kimi bu tədbir də həm dövlətçilik tariximizə, həm də Ulu Öndərin rəhbərlik fenomeninə sayğı deməkdir.

"N" hərbi hissəsində keçirilən tədbiri hərbçilərlə ictimaiyyətin münasibətlərinin birgəliyi adlandırmaq olar. Millət vəkili Naqif Həmzəyev çıxış edərək Ulu Öndərin azərbaycançılıq ideologiyasını dövlət siyasəti səviyyəsində formalaşdırmasından, Azərbaycanın gələcəyi naminə gördüyü möhtəşəm işlərdən, bu baxımdan, ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərdən, istər ordunun şəxsi heyətinin, istərsə də əhalinin qələbə inamını kükrədən Horadiz əməliyyatından danışdı. Gəncə Dövlət Universitetinin dosenti Hüseyn Bəxtiyarov da dahi tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycan naminə xidmətlərindən söz açdı.

Polkovnik-leytenant Vüqar İsfəndiyarov son illərdə ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatların Ulu Öndərin siyasi kursunun davamı olduğunu qeyd etdi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyilə ordu quruculuğunda daha böyük nailiyyətlər qazanılacağına əminliyini bildirdi.

Mayor Fəxrəddin Əhmədov Azərbaycan Ordusunun gücündən söz açaraq 2016-cı ilin Aprel zəfərindən, 2018-ci ildə keçirilən Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradlardan danışdı. Qeyd etdi ki, ordu torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Gəncə Mərkəzləşdirilmiş Kitabxana sisteminin əməkdaşı Elnarə Hüseynova çıxışında Ulu Öndərin həyat və fəaliyyətinin bədii ədəbiyyatda öz əksini yüksək səviyyədə tapdığından danışdı.

Sonda Mərkəzləşdirilmiş Kitabxana sisteminin təşkil etdiyi kitab sərgisi oldu. Tədbir bir daha təsdiqlədi ki, Azərbaycan üzü gələcəyə doğru inamla irəliləyir, irəliləyəcək.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Ordumuzu layiqincə təmsil edəcəyik

*Dünyanın ən güclü orduları sırasında olan Azərbaycan Ordusunun şəxsi heyəti keçirilən irimiqyaslı təlimlərdən əlavə, təşkil olunan beynəlxalq turnirlərdə də ölkəmizin müdafiə qabiliyyətini dünyaya nümayiş etdirir. Beynəlxalq Ordu Oyunlarında iştirak edən hərbi qulluqçularımız yüksək göstəricilər sərgiləyərək, üçrəngli bayrağımızı daim yüksəklərdə saxlayırlar. Bu növ beynəlxalq yarışlarda Azərbaycan Ordusunun iştirakı xarici ölkələrlə əməkdaşlığın möhkəmləndirilməsində, dostluq, rəqabət gücünün artırılmasında mühüm rol oynayır. Keçirilən yarışlarda hərbçilərimizin göstərdiyi nəticələr ordumuzun güclü ordular sırasında əbəs yerə olmadığının bariz nümunəsidir.*





Təlim meydanında Beynəlxalq Ordu Oyunlarına hazırlaşan dəmir atlı cəngavərlərimizin hazırlıq prosesində iştirak etdik. Tankçılar manea sahəsini, tankəleyhinə xəndəyi və eskarpı dəf etdikdən sonra yaradılmış hədəfləri döyüş atışları ilə məhv etmək bacarıqlarını təlim iştirakçılarına nümayiş etdirdilər. Təlim bitdikdən sonra tank ixtisası üzrə təcrübəli zabit Sakit Verdiyevin və yüksək nəticə göstərən heyət üzvlərinin fikirlərini öyrəndik.

Tankçı zabit S.Verdiyev keçirilən Beynəlxalq Ordu Oyunlarının tank biatlonu müsabiqəsinin şərtləri ilə bizi tanış etdi. "Yarışlar üç mərhələdə təşkil olunur; fərdi, estafet və final mərhələsi. Müsabiqə zamanı tankçılar minalanmış sahəni, su manelərini dəf edərək irəliləyir, eskarpı keçdikdən sonra pulemyotdan hədəflərə atışlar həyata keçirirlər. Sonrakı mərhələdə tankçılar ağır mərmi ilə uzaq məsafədə yerləşən hədəfləri məhv edirlər. Müddətə və göstərilən göstəriciyə əsasən qalib müəyyən edilir. Estafet üsullu yarışlarda hər komanda bir tank və üç ekipajla tapşırıqları yerinə yetirir. Sonda ümumi nəticə etibarı ilə göstəricisi yüksək olan komanda qalib olur".

Tankçı zabit S.Verdiyevin tankçılarımızın Beynəlxalq Ordu Oyunlarında sərgilədiyi oyun və göstərdiyi nəticə ilə bağlı fikirlərini də öyrəndik. "Bünövrəsi 2015-ci ildə qoyulan Beynəlxalq Ordu Oyunlarına maraq ilbəil artmaqdadır. Müxtəlif dövlətlərin iştirakı ilə keçirilən hərb oyunları dövlətlərarası münasibətlərin möhkəmlənməsində böyük rol oynayır. Yarış beynəlxalq əhəmiyyət təşkil etdiyi üçün heyət məsuliyyəti hiss edir və verilən tapşırıqları yüksək dəqiqliklə yerinə yetirir. Təqdirəlayiq haldır ki, tankçılarımız bu yarışlarda yaxşı göstəricilər əldə edərək müxtəlif medal və qiymətli hədiyyələrlə təltif olunurlar. Ötən il tank biatlonu üzrə təşkil olunan yarışda hərbçilərimiz 23 komanda arasında 5-ci yeri tutdu. Bu bizim üçün yaxşı göstəricidir, nəzərə alsaq ki, rəqiblərimiz dünyanın hegemon dövlətləri idi. Bu il çalışacağıq ki, nəticələrimiz daha yaxşı olsun. Sonda onu demək istərdim ki, ordumuzun təcrübəli hərbi qulluqçuları təkcə "tank biatlonu" üzrə deyil, digər müsabiqələrdə də ölkəmizi layiqincə təmsil edir və əsl gücünü dünyaya nümayiş etdirirlər.

Gizir Amid Əliyev ötən il ordumuzu Beynəlxalq Ordu Oyunlarında "Tank biatlonu" üzrə layiqincə təmsil edən hərbi qulluqçularındandır. Əslən Masallı rayonundan olan gizir A.Əliyev uzun müddətdir ki, ordu sıralarında xidmət edən təcrübəli hərbçilərimizdəndir. "Tarixi torpaqlarımızın işğal altında olması və ədalətin hələ də bərqərar olunmaması bizim hər an müharibəyə hazır olmağımızı tələb edir. Keçirilən təlimlər ordumuzun gücünə güc qatır. Biz hərbi qulluqçular olaraq öz üzərimizdə daim işləyir, döyüş hazırlığımızın artırılması üçün əlimizdən gələni əsirgəmirik".

Söhbət əsnasında Amid Əliyevin özündən beş yaş balaca qardaşı Pərvinin də tankçı olduğunu öyrənirəm və hər ikisi Aprel döyüşlərində iştirak edib. "Qardaşımla birlikdə Lələtəpənin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişik, lakin ayrı-ayrı bölmələrdə düşmənə qarşı vuruşmuşuq. Həmin gün ordumuz ata-baba torpaqlarımızın bir qismini düşməndən azad etdi. Yüksəkliyə bayrağımız sancılanda fəxarət hissi keçirdim. O gün olsun ki, üçrəngli bayrağımız düşmən işğalında olan bütün tarixi torpaqlarımızda dalğalansın".

Gizir Amid Əliyev keçən il təşkil olunan Beynəxalq Ordu Oyunlarında yaddaqalan maraqlı məqamları da bizimlə bölüşdü. "Keçən il Beynəlxalq Ordu Oyunları çərçivəsində "Tank biatlonu" üzrə təşkil olunan yarışda birinci mərhələnin açılışında ilk çıxış edən bizim heyət oldu. Bu mərhələni birinciliklə bitirdik. Tribuna qarşısından keçərkən Müdafiə naziri general-polkovnik Zakir Həsənova verdiyim əsgəri salamı ömrüm boyu unutmayacağam. Bundan başqa, ordumuzda baş tutan təlimlərdə fərqləndiyim üçün komandirlərim tərəfindən dəfələrlə mükafatlandırılmışam".

Dost-tanışları arasında "tank snayperi" ləqəbi ilə tanınan Məftun İbrahimov da təcrübəli tankçılarımızdandır. Uzun müddətdir ordu sıralarında xidmət edən gizir M.İbrahimovun dayısı İslam Fətullayev Qarabağ döyüşlərində iştirak edən tankçılardan biri olub və müsahibim uşaq yaşlarından dayısını özünə örnək bilib. 2018-ci ildə ordumuzu Beynəlxalq Ordu Oyunları müsabiqəsində təmsil edən tankçımız heyətlərinin qazandığı uğurlar barədə bizə məlumat verdi. "Ötən il Beynəlxalq Ordu Oyunlarının "Tank biatlonu" üzrə keçirilən müsabiqəsində heyətimiz yaxşı nəticə göstərdi. 3 ildir ki, beynəlxalq "Tank biatlonu" yarışlarında iştirak edirəm. Göstərdiyim fərdi nəticələrə görə Rusiyanın Müdafiə naziri tərəfindən "Dostluq" medalı ilə təltif edilmişəm. Yarışların qaydalarına görə müəyyən məsafədə yerləşən hədəflərə atəş çalışmalarını yerinə yetirərkən hədəflərin düşmənə aid olduğunu düşünürəm. Yəqin bu səbəbdəndir ki, atdığım mərmilər hədəfdən yayınmır. Arzu edirəm ki, bu il baş tutacaq Beynəlxalq Ordu Oyunlarında da ölkəmizi layiqincə təmsil edək. Ötən üç ildə olduğu kimi düşmənimizi susduracağıq".



Müsahibənin sonunda təcrübəli hərbi qulluqçu ən böyük arzusunun düşmənin bir tank bölüyünü məhv etmək olduğunu bildirdi.

Təlimdə yüksək bacarıq nümayiş etdirən gizir Samir İsgəndərovun da fikirlərini öyrəndik. Gizirin qardaşı və əmisioğlu da hərbi qulluqçudurlar. 2017-ci ildə Moskvada təşkil olunan Beynəlxalq Ordu Oyunlarının, "Tank biatlonu" üzrə müsabiqəsində göstərdiyi fərdi nəticələrə görə S.İsgəndərova Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən gizir rütbəsi verilib. Müsahibim də keçirilən yarışlarda yaddaqalan anların olduğunu bildirdi. "Tankı istənilən hava şəraitində, günün işıqlı və qaranlıq vaxtlarında relyefindən asılı olmayaraq məharətlə idarə etməyi bacarmalısan. Komandirlərimiz tərəfindən keçirilən dərslər sayəsində döyüş ustalığımızı artırırıq ki, ordumuzda keçirilən birinciliklərdə və beynəlxalq turnirlərdə ölkəmizi layiqincə təmsil edək. Beynəlxalq Ordu Oyunları turnirində fərqləndiyim üçün Müdafiə nazirimiz mənə gizir rütbəsi verdi. Xidmətim müddətində bu gün ən yaddaqalan günlərdən biridir. Bu işin məsuliyyətini dərk edib yuxarı rəislərimin etimadını doğrultmağı özümə borc bilirəm. Rusiyada "Tank biatlonu" üzrə keçirilən yarışlarda ən yaddaqalan hadisələrdən biri, "Əsgər marşı" səsləndirilərkən bədxah qonşularımızın tribunanı başıaşağı tərk etməsi olub. Azərbaycan Ordusunun gücünü təkcə yarış iştirakçıları deyil, bütün dünya gördü".

Keçirilən məşqlər zamanı tankçılarımızın bacarığı, manеələrin asanlıqla dəf edilməsi, hədəflərin dəqiqliklə vurulması Rusiyada təşkil olunacaq hərb oyunlarında tankçılarımıza olan ümidlərimizi daha da artırdı. Təlim zamanı öz döyüş məharətini, peşəkarlığını, hərbi biliklərini ustalıqla sərgiləyən hərbçilərimizə inamımız sonsuzdur. Məqsəd yarışlardan qızıl medallarla qayıtmaq deyil, vacib olan dünyanın güclü orduları sırasında olan Azərbaycan Ordusunu layiqincə təmsil etməkdir.

**Leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

*Heç kim unudulmur*

# Şəhid kapitan Mühüd Orucovun anım mərasimi

*Aprel döyüşləri müasir tariximizin qəhrəmanlıq salnaməsidir. Xalqımıza qələbə sevinci yaşatmaqla yanaşı, Böyük Qələbənin də başlanğıcı olan bu döyüşlərdə qorxmaz Azərbaycan əsgəri düşmənin illərdir formalaşdırdığı mifi dağıdaraq işğal altında olan torpaqlarımızın bir hissəsini azad etdi. Strateji əhəmiyyətə malik yüksəklikləri azad edərək nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Ordumuz sübut etdi ki, əgər sülh danışıqları bir nəticə verməzsə, Azərbaycan işğal altında olan torpaqlarını hərb yolu ilə geri qaytaracaq.*






Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışlarının birində deyirdi: “Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir... Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi". Ali Baş Komandan Aprel döyüşlərinin əhəmiyyətini vurğulamaqla bərabər, ordumuzun gücünü, işğal altında olan bütün Azərbaycan torpaqlarını azad etməyə qadir olan igid və mərd oğullarımızın olduğunu ortaya qoydu.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzində məhz belə bir oğullardan biri aprel şəhidi kapitan Mühüd Orucovun anım mərasimi keçirildi.

Tədbirdə millət vəkilləri, şəhidin ailə üzvləri, döyüş yoldaşları, "N" hərbi hissəsinin şəxsi heyəti, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin, Qazax Xeyriyyə İctimai Birliyinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov tədbiri ulu öndər Heydər Əliyevin Vətən keşiyində dayanan əsgər və zabitlərə ünvanladığı "Bilin ki, Sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə xidmət edəcəkdir. Bilin ki, ümumi qələbəmiz Sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır" kəlamıyla açaraq bildirdi ki, elə buna görə də hərbçilər hərbi həyata qədəm qoyduğu ilk günlərdən - kursantlıq dövründən, zabit kimi xidmətə başladığı andan Ümummilli Liderimizin ideyalarına sadiq qalmağı, hər an Vətənə şərəflə xidmət etməyi qarşılarına məqsəd qoyurlar. Vətən uğrunda şəhid olub, o ali zirvəyə yüksəlmək Azərbaycan Ordusunda qulluq edən hər bir hərbçinin arzusudur.



Şəhidin həyatından, keçdiyi döyüş yolundan söz açan zabit qeyd etdi ki, kapitan Orucov Mühüd Qurban oğlu 13 iyul 1984-cü ildə Qazax rayonunun Fərəhli kəndində anadan olub. "1991-ci ildə K.Kərimov adına orta məktəbin birinci sinifinə daxil olub. 1999-2002-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseyi və 2002-2006-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirir. 2006-2007-ci illərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində zabit ixtisas kursunu bitirərək "N" hərbi hissəsində xidmətə başlayır. Dəfələrlə fəxri fərman və medallarla təltif olunur. 2014-cü ildə Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən xatirə saatı ilə mükafatlandırılır. Dəfələrlə Türkiyə Respublikasında müxtəlif kursları müvəffəqiyyətlə bitirərək sertifikatlar alır.

2016-cı il aprelin 2-dən 3-nə keçən gecə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalır.

Mühüd Orucov göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edilib.

Vətən uğrunda ən ali zirvəyə yüksələn kapitan Mühüd Orucovun əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır".

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində dünyanın inkişaf etmiş orduları sırasında dayanan güclü ordumuzun Aprel döyüşləri zamanı tarix yazdığından danışan zabit vurğuladı ki, qısa müddətdə döyüş yolu ilə işğal altında olan mühüm əhəmiyyətli yüksəkliklər geri qaytarıldı. "Ordumuz bu gün də həmin Qələbəni təkrarlamaq iqtidarındadır".

Millət vəkili Adil Əliyev bildirdi ki, ölkə başçısının da söylədiyi kimi, Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. "Bu qələbəni isə bizlərə Mühüd Orucov kimi oğullar bəxş ediblər. Aprel döyüşləri bütün dünyaya sübut etdi ki, dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu günü-gündən inkişaf edir. Böyük Qələbənin başlanğıcı olan bu döyüş düşmənə ordumuzun gücünü, əsgərlərimizin vətənpərvərliyini, Vətən eşqini, torpaq uğrunda şəhid olmaq sevdasını göstərdi. Düşmən Azərbaycan Ordusunun hər an onları məhv etməyə qadir olduğunu anladı. Mühüd Orucovun göstərdiyi igidliklər hər bir azərbaycanlı üçün nümunədir. Məhz belə igid, qorxubilməz, cəsur oğullar sayəsində işğal altında olan Azərbaycan torpaqlarının bir hissəsi düşmən tapdağından azad edilib, ordumuzun nəzarəti altına keçdi".

Millət vəkili Qarabağ müharibəsi əlillərinin, veteranların və şəhid ailələrinin hər zaman dövlətin diqqət mərkəzində olduğunu da vurğuladı. "Onlara qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi həmişə diqqət mərkəzində olub. İcra olunan layihələr nəticəsində, həmin qəbildən olan minlərlə insanın sosial vəziyyəti yaxşılaşmaqdadır. Bu problemlərin həlli istiqamətində mühüm layihələr həyata keçirilir. Bütün bunlar, bir daha təsdiq edir ki, şəhid ailələrinin, müharibə əlilləri və veteranlarının, eləcə də digər bu kimi təbəqələrin sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin sosial siyasətinin başlıca tərkib hissəsidir. Həmin kateqoriyadan olan insanların müvafiq sosial təminat növləri - pensiya, müavinət, Prezident təqaüdü ayrılması üçün davamlı işlər aparılır. Digər tərəfdən, konkret sosial proqramlarla şəhid ailələri və Qarabağ əlillərinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. Bundan əlavə, qanunvericilikdə bu təbəqələrdən olanlar üçün bir sıra güzəştlər, əlavə təminatlar əksini tapır".

Şəhidin əmisi Elşad Orucov şəhidlərimizə və şəhid ailələrinə olan xüsusi diqqət və qayğıya görə Prezident İlham Əliyevə, birinci vitse-prezident Mehriban Əliyevaya, öz dərin minnətdarlığını bildirdi.

Tədbirdə Qazax Xeyriyyə İctimai Birliyinin sədri, professor İlham Pirməmmədov, Azərbaycan Respublikası Güləş Federasiyasının vitse-prezidenti Firdovsi Umudov, döyüş yoldaşları mayor Elnur Kərimov və mayor Elcan İmamverdiyev, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, leytenant Günel Dadaşova və başqaları çıxış edərək Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin döyüş zamanı göstərdiyi qəhrəmanlıqlardan, əsgərlərimizin cəbhədə əldə etdikləri uğurlardan söz açdılar. Çıxışlarda Aprel döyüşlərinin böyük əhəmiyyət daşıdığı, bu döyüşlərin, eyni zamanda, Azərbaycanın güclü bir dövlət kimi tanınmasına imkan yaratdığı vurğulandı. Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli ordumuzun bundan sonra da qələbə qazanacağı, işğal altında olan torpaqlarımızın tezliklə düşmən tapdağından azad ediləcəyi və üçrəngli bayrağımızın həmin torpaqlarda dalğalanacağı günün uzaqda olmadığı qeyd edildi.

Mərasimdə tanınmış şair, publisist Fəridə Ləmanın şəhidə həsr etdiyi "Mühüdüm - Şəhidim" adlı kitabı da təqdim edildi.

Tədbirin sonunda şəhidə həsr olunmuş videoçarx nümayiş olundu, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi vətənpərvərlik musiqiləriylə çıxış etdilər.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Azərbaycan mətbuatı - 144*

# “Əkinçi”ylə başlanan milli mətbuatımız




*Bu gün Azərbaycan sivilizasiyaların qovuşduğu, bəşəriyyətin gələcəyi naminə açıq, konstruktiv dialoqların aparıldığı məkana çevrilib. Ötən yüzilliyin sonlarında müstəqilliyini bərpa edən xalqımız əsrlər boyu qoruduğu milli dəyərləri və unikal xüsusiyyətləri bütün dünyaya təqdim etmək imkanı qazanıb. İndi artıq bizi hər kəs doğru-düzgün, olduğumuz kimi tanımağa, qəbul etməyə başlayıb. 28 illik müstəqilliyimiz dövründə əldə etdiyimiz uğurları gördükdə hər birimizin qəlbi fərəh hissi ilə döyünür. Əslində, bu inkişaf xalqımızın minilliklər boyu yaradıb yaşatdığı milli-mənəvi dəyərlərdən güc alır. Ulu əcdadlarımızın bizə miras qoyduğu üstün dəyərlər əsrlər boyu qorunub, inkişaf etdirilib və nəsillərin yaddaşlarına hopub. Xalqın soy kökündən gələn dəyərləri isə məhv etmək mümkünsüzdür.*

Milli-mənəvi dəyərlər və bəşəri prinsiplər əsasında qurulan milli mətbuatımızın yarandığı gündən düz 144 il keçir. Böyüklüyü və kiçikliyindən asılı olmayaraq, dünyanın bütün xalqları gec-tez öz tarixinə iftixarla yazır: filan vaxtda bizdə ilk məktəb açılmışdır... Birinci qəzet, birinci jurnal, birinci kitab nəşr edilmişdir... Hər bir xalqın öz ana dilində ilk qəzet oxuması, şübhəsiz, bu da həmişə hər yerdə əlamətdar hadisə olur. Öz dövri mətbuatını Avropa XVI əsrdə, Rusiya isə XVIII əsrin ilk illərində yaratdığı halda, Azərbaycan buna ancaq 1875-ci ildə nail ola bilir. Feodal mütləqiyyəti və orta əsr geriliyi səbəbindən "Əkinçi"nin mənsub olduğu xalqın intizarı çox uzun çəkir.

Azərbaycan mətbuatının keçdiyi tarixi yol yaş etibarilə o qədər də böyük deyil. Lakin bu yolun şərəf, ləyaqət yolu olduğu heç kimdə şübhə doğurmur. Mətbuatımızın keçdiyi tarixi yol xalqımızın qürur mənbəyidir. Milli oyanışın yeni mərhələsini təmsil edən "Əkinçi" qəzetinin başlanğıcını qoyduğu bu yol neçə-neçə mətbu və ədəbi məktəbin formalaşma prosesinə təkan verdi, xalqın maariflənməsinə, milli-azadlıq hərəkatının güclənməsinə birbaşa öz güclü təsirini göstərdi. Tarixin müxtəlif ictimai-siyasi mərhələlərində bərkiyib formalaşmış Azərbaycan mətbuatı xalqa, cəmiyyətə, insana xidmət borcunu şərəflə yerinə yetirdi. Həsən bəy Zərdabi "Əkinçi"ni nəşr etdirməklə, Azərbaycan demokratik mətbuatının bünövrəsini qoydu. "Əkinçi" Azərbaycanda ictimai fikrin canlanmasına təkan verdi. H.Zərdabi nəşr etdirdiyi qəzetin adını "Əkinçi" qoysa da, orada qabaqcıl mütərəqqi ideyalar təbliğ olunurdu. Xalqımızın ana dilində oxuması çox əlamətdar bir hadisə idi. "Əkinçi" də öz növbəsində ana dilinin saflığı, zənginləşməsi uğrunda mübarizə aparırdı. Böyük ziyalı, işıqlı insan H.Zərdabi həyatı boyu, qəzetin səhifələrindəki yazı ilə xalqına fayda verməklə yanaşı, Azərbaycanda peşəkar teatrın bünövrəsini qoydu, xeyriyyə cəmiyyəti açdı, Bakı Realnı Məktəbində müəllimliyi və maarifçiliyi inkişaf etdirdi. O, zəhmətkeş xalqa, onun tərəqqisinə və mübarizəsinə xidmət edən, zülmə, haqsızlığa, rəzalətə qarşı mübarizə aparan mətbuatın tərəfdarı idi. H.Zərdabi yazırdı: "Hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm qanmayır. Axırda gördüm ki... Qəzeti çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzilinə çata bilsin... Heç olmasa ki, doğru söz yerdə qalmasın".

XIX əsr Azərbaycan ictimai fikri, mətbuatı, ədəbiyyatı və dilinin, həmçinin təbiətşünaslıq elminin tarixini öyrənmək üçün "Əkinçi" çox böyük və mühüm bir mənbə idi. Qəzetin "Daxiliyyə", "Elm xəbərləri", "Mətbuat", "Əkin və ziraət xəbərləri" və "Əfhali-əhli-dehat" bölmələrində faktlara əsaslanan çox qiymətli yazılar dərc olunurdu. H.Zərdabi müxtəlif rubrikalar altında verilən qəzet materillarında özünün və əqidə dostları Seyid Əzim Şirvani, Əlimədəd Abdullahzadə, Məmnun Əlqədari, Əhsənül-Qəvaid, Məhbus Dərbəndi, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqalarının mütərəqqi fikirlərini yayır, məqsədinə nail olmaq üçün müxtəlif formalardan bacarıqla istifadə edirdi. Hər bir sahədən oxuculara bilik və məlumat verməyə, həmvətənlərində savad ehtiyatı yaratmağa səy göstərirdi. "Əkinçi"yə nəzər salarkən onun ictimai, iqtisadi, elmi, mədəni işi sırf əməli və maarifləndirici işlə bir yerdə paralel surətdə aparmasının canlı şahidi oluruq. Qəzetin səhifələrində dərc olunan yazıların əksəriyyətində yeni tipli mədəniyyət yaradılması məsələləri - qədim ədəbiyyat, incəsənət, dil, pedaqogika, dərslik, tərcümə, kitab nəşri, kitabxana, məktəb və digər məsələlər əsas yerlərdən birini tuturdu. Eyni zamanda, kiçik yaşlı məktəb uşaqlarına dərslik əvəzinə "Leyi və Məcnun", "Min bir gecə", "Pişik və siçan" kimi əsərlərin təqdim edilməsi və onların mütaliə dairəsinin məhdudlaşdırılması tənqid edilirdi. Qəzet pedaqoji meyillərin təbliği ilə yanaşı, məktəb, təlim-tərbiyə məsələləri ətrafında mübahisə və müzakirələrdən də çəkinməmişdir. "Elmi xəbərlər" bölməsində dərc olunan yazılar, əsasən maarifləndirici məqsəd daşıyırdı. O zaman Bakıya gəlmiş bir fransız jurnalisti H.Zərdabi ilə söhbətində belə demişdi: "Doğrusu, siz əsl qəhrəmansınız. Bizim Fransada belə bir yoxsul qəzet üçün işləmək istəyən adam tapmaq olmazdı. Sizin qüvvənizə heyranam. Belə məlum olur ki, siz öz xalqınızı çox istəyirsiniz".

Xalqımız müxtəlif tarixi dönəmlərdə ayrı-ayrı imperiyaların tərkibində yaşamasına baxmayaraq, nə dilini, nə dinini, nə də adət-ənənəsini itirmədi. Bütün bu dəyərlər mətbuatımızın yaşamasında və inkişafında öz real təcəssümünü tapdı. "Əkinçi" özündən sonra "İrşad", "Həyat", "Azərbaycan" qəzetlərinin, "Molla Nəsrəddin" jurnalının meydana çıxmasına yol açdı. İctimai fikir və mətbuat tariximizdə Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov, Əbdürrəhman bəy Haqverdiyev, Həsən bəy Zərdabi, Abdulla Şaiq, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Ömər Faiq Nemanzadə kimi şəxsiyyətlərin yeri və rolu əvəzsizdir. Onların ideya və baxışları sırf azərbaycançılıq məfkurəsi ilə yoğrulmuşdu, xalqı, milləti maariflənməyə, milli-mənəvi dəyərlərə yiyələnməklə bəşəri yüksəlişə və inkişafa səsləyirdi. Məhz bu səs-sədanın gücü ilə XIX əsrin ikinci yarısından başlayaraq XX yüzillikdə xalqımızın ictimai-siyasi və mədəni həyatında ölçüyə sığmayan inkişaf baş verdi. Xalqımız maarifləndi, savadlandı, onu cilovlayan müstəmləkə zəncirindən azad olmaq üçün mücadilə yoluna çıxdı. Müsəlman Şərqində ilk müstəqil demokratik dövləti quran xalqımız bu dövrün zəngin mətbuat tarixini də yaratdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dərc olunan nəşrlərdə milli şüura və ictimai fikrə təsir edən çoxlu sayda məqalələr işıq üzü gördü.

Xalqı ideya və məfkurəcə maarifləndirməyin yeganə yolu yalnız və yalnız mətbuatdan və dövri nəşrlərdən keçirdi. Böyük naşir, tanınmış dramaturq C.Məmmədquluzadənin nəşr etdirdiyi "Molla Nəsrəddin" jurnalı nəinki Azərbaycanın, bütün Şərq dünyasının mətbuat tarixinin nadir sənət incisidir. Bu jurnal siyasi və ideoloji sistemdə deyil, şüurda, düşüncədə, həyat və yaşam tərzində inqilablar etdi.

Bu gün böyük mücadilə və mübarizələrdən keçən milli mətbuatımız 144 il ərzində öz yüksəliş və inkişaf mərhələsinə gəlib çıxıb. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbuat orqanı qəzet və jurnal fəaliyyət göstərir. Milli mətbuatımız illər keçdikcə daha da büllurlaşacaq, saflaşacaqdır. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əkinçi" qəzetinin nəşrə başlandığı gün 22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur. Hazırda ölkədə 4500-ə yaxın mətbuat orqanı rəsmi qeydiyyatdan keçib.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, onların rasionallığının artırılması sahəsində geniş Dövlət Proqramının əsas istiqamətlərini müəyyən etdi. Azərbaycanda mətbuatın inkişafına töhfə verən digər vacib amil ölkənin nüfuzlu beynəlxalq təşkilata - Avropa Şurasına daxil olmasıdır. Təşkilata daxil olduqdan sonra ölkədə aparılan demokratik islahatlar söz və mətbuat azadlığının daha geniş təşəkkülünə şərait yaratdı. Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu ilin martın sonunda imzaladığı sərəncamla Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradıldı. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən buna xidmət edən kütləvi informasiya vasitələrinə dövlət dəstəyidir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə terror təşkilatına maddi dəstək verən altı nəfər həbs olunub




Türkiyənin Tunceli və İzmir şəhərlərində PKK terror təşkilatına qarşı əməliyyat keçirilib. Əməliyyat nəticəsində on nəfər terror təşkilatı ilə əməkdaşlıq etməkdə şübhəli qismində saxlanılıb.

Hakim qarşısına çıxarılan müttəhimlərdən altısı həbs olunub. Onlardan biri məhkəmə nəzarətinə alınıb, üç nəfər isə sərbəst buraxılıb.

Tunceli Prokurorluğundan verilən məlumatda həbs olunanların terror təşkilatına maddi dəstək verdiyi bildirilir.

## “Taliban” silahlıları Əfqanıstanın mərkəzi əyalətində xəstəxanaları bağlayıblar



"Taliban" silahlıları Əfqanıstanın mərkəzindəki Maydan Vardak əyalətində xəstəxanaları və tibb mərkəzlərini bağlayıblar. Bunu Anadolu agentliyinə Əyalət Şurasının üzvü Şərifullah Horak bildirib. Onun sözlərinə görə, silahlıların nəzarətində olan bu əyalətin təcili müalicəyə ehtiyacı olan sakinləri yüzlərlə kilometr aralıda yerləşən paytaxt Kabildə və ya Qəzni əyalətindəki tibb müəssisələrinə getməli olurlar.

Əfqanıstan üzrə İsveç Komitəsi (SCA) humanitar yardım təşkilatının nümayəndəsi bildirib ki, bu anlaşılmaz insident nəticəsində əyalətdəki 42 tibb müəssisəsi fəaliyyətini dayandırıb. "Taliban" silahlılarının bu hərəkətini pisləyən humanitar təşkilat əlavə edib ki, tibbi yardıma ehtiyacı olan 5700 pasiyent köməksiz vəziyyətdə qalıb. SCA-nın ölkə üzrə direktoru Sonny Manson deyib ki, təşkilata məxsus olan tibb ocaqlarının da bağlanması və əhalinin səhiyyə xidmətindən məhrum olması insan hüquqlarına və beynəlxalq normalara ziddir. O əlavə edib: "Biz səhiyyə müəssisələrinin fəaliyyətinin dərhal bərpa olunmasını və tərəflər arasında münaqişənin dinc insanların həyatını riskə atmadan həll olunmasını tələb edirik".

"Taliban" hərəkatı silahlılarının ötən həftə əyalətin Daymirdad rayonunda hökumətin təhlükəsizlik qüvvələrinə məxsus hospitala hücum etməsi nəticəsində dörd nəfər ölüb, bir adam isə hələ də itkindir.

## Yaponiyada animasiya studiyasındakı yanğında ölənlərin sayı 23 nəfərə çatıb



Yaponiyada animasiya studiyasında törədilən yanğında ölənlərin sayı 23 nəfərə çatıb, onlarla adam yaralanıb. Kiotoda bir animasiya studiyası naməlum şəxs tərəfindən qəsdən yandırılıb. Yanğının təhqiqatı zamanı binanın içərisində və ətrafında yanan maye olan şüşələr tapılıb.

NHK telekanalının xəbərində deyilir ki, yanğınsöndürənlər son dəqiqələrdə daha 10 nəfərin cəsədini aşkar ediblər. Daha 35 adam isə xəstəxanalara çatdırılıb.

## Güclü külək, leysan yağışları və dolu Gürcüstanda ciddi problemlər yaradıb



Güclü külək, leysan yağışları və dolu Gürcüstanda yenidən ciddi problemlər yaradıb.

Əlverişsiz hava şəraiti bu dəfə Gürcüstanın Ambrolauri rayonunda ciddi problemlər yaradıb.

Güclü külək, yağış və dolu nəticəsində rayon mərkəzində bir neçə yaşayış binasının və 200-ə yaxın şəxsi evin dam örtüyü dağılıb.

Ağacların aşması nəticəsində mərkəzi yollarda avtomobillərin hərəkəti məhdudlaşıb.

Təbii fəlakətin fəsadlarının aradan qaldırılması istiqamətində tədbirlər görülür. İlkin hesablamalara görə, Ambrolauri rayonuna dəyən zərər yarım milyon lari təşkil edir.

**AZƏRTAC-ın materialları əsasında**

Könlüm şeir istəyir

# “Mən Arazam, səsim coşqun Arazdı...”

*Xalq şairi Məmməd Arazın şeirləri bəşəri şeirlərdi. Əslində, milli-xəlqi ruhun poetik ifadəsi kimi oxunan və dərk edilən bu şeirlər azərbaycançılıq ideologiyasının şeiriyyətidir. Məmməd Arazın şeirləri oxucunun duyğularının ustadına dönür, ürəyinin həmdəminə. Oxuyursan, misralar, bədii fikirlər vasitəsilə şairlə kəlmələşirsən, düşüncələrin şeiriyyətdən kifayət qədər səviyyəli şəkildə barınır...*

**"Azərbaycan Ordusu"**

## “Ana yurdum, hər daşına üz qoyum”

Ana yurdum, hər daşına üz qoyum,
Hər dərəndə çaldığım saz yaşayır.
Kimi sənin çiynində, sən kiminin...
Şöhrətini yaşadan az yaşayır.

Bu gileydən qəlbim yaman xallanır:
Çox ünvanda qaçaq tərif yallanır.
Bir ağılın budağından sallanıb,
Neçə-neçə ağlı dayaz yaşayır.

Gülüm, bir də görüşünə yubansam,
Adımı tut, harda dağlar dumansa.
Gözünü sıx, hansı daşda su yansa,
O daş altda Məmməd Araz yaşayır.

## Dünya sənin, dünya mənim...

Bir taleyin oyununda cütlənmiş zərik,
Yüz il qoşa atılsaq da qoşa düşmərik.
Bir zərrənin işığına milyonlar şərik,
Dünya sənin, dünya mənim,
Dünya heç kimin...

Çevrəsindən çıxsa əgər sevda fırfıran,
Bir ümidin ətəyindən tutub da fırlan,
Eşidərsən: pıçıldayır yıxılan, duran,
Dünya sənin, dünya mənim,
Dünya heç kimin...

Bu get-gəllər bazarına dəvədi dünya,
Bu ömür-gün naxışına həvədi dünya.
Əbədiyə qəh-qəh çəkər əbədi dünya,
Dünya sənin, dünya mənim,
Dünya heç kimin...

Ayaq saxla, dövrənə bax ötəri belə,
Min illərdir Araz belə, Həkəri belə.
Axşamların, səhərlərin təkəri belə,
Dünya sənin, dünya mənim,
Dünya heç kimin...

Gülünclərə gülünc gələn bu ada güldüm,
Yüyəninə hər əl yetən bu ata güldüm,
Mən özümlə oynadığım şahmata güldüm
Dünya sənin, dünya mənim,
Dünya heç kimin...

## Səhər-səhər

Baharın nə gözəl çağları gəlmiş,
Bülbülü çağırır gül səhər-səhər.
Vətənin eşqiylə dil açıb yenə
Könlümün sazında tel səhər-səhər.

Çıxır meşəlikdən talaya əlik,
Səkir daşdan daşa xınalı kəklik.
Şehdən muncuq düzür güllük, çiçəklik,
Gəlinə bənzəyir çöl səhər-səhər.

Gedirəm tələsik tarlaya sarı,
Hamıdan tez gələ o qız da barı.
Sinəsi qartallı qayalıqları
Əks edir sonalı göl səhər-səhər.

Sevda yolçusunun xəyalına bax,
Sənsiz əfsanədir gözəllik ancaq.
Ey günəş üzlü yar, günəşdən qabaq
Yoluma nur çilə, gəl səhər-səhər.

## Bir sənin eşqinlə...

Yenə varaqlandı könül kitabım
Bir sənin, bir sənin eşqinlə, gözəl!
Düşündüm gül açır, bülbül oxuyur
Bir sənin, bir sənin eşqinlə, gözəl!

Sinəmə bir eşqin sazını asdım,
Hər könül nəğməmi o dedi, yazdım.
Çox eşqin səsinə qulaq da asdım
Bir sənin, bir sənin eşqinlə, gözəl!

Gah odsuz, alovsuz pərvanə oldum,
Eşqinlə güləcək divanə oldum.
Bəlkə yüz gözələ biganə oldum
Bir sənin, bir sənin eşqinlə, gözəl!

Qəm-kədər üzünə tutanda pərdə
Qəmləndi çaylar da, şəlalələr də.
Sandım, doğur günəş, gülür səhər də
Bir sənin, bir sənin eşqinlə, gözəl!

Sənsiz bir anıma dedim bir ildi,
Dərdimi nə bacı, nə ana bildi...
Məhəbbət önündə qəddim əyildi
Bir sənin, bir sənin eşqinlə, gözəl!

## Əlvida, dağlar!

Bəlkə bu yerlərə bir də gəlmədim,
Duman, salamat qal, dağ, salamat qal.
Dalımca su səpir yoxsa buludlar? -
Leysan, salamat qal, yağ, salamat qal!

Qıy vuran qartallar yox oldu çəndə,
Nərgizlər saraldı şehli çəməndə.
Ey qaragöz pəri, dalımca sən də
Boylan, salamat qal, bax, salamat qal!

Gəldim, qarşıladı güllər-çiçəklər,
Gedirəm, əl edir boz biçənəklər.
Nidamı çaylara dedi küləklər:
Bulan salamat qal, ax, salamat qal!

Dağların pələngi, şiri də sənsən,
Şairi də sənsən, şeiri də sənsən.
Varı, bərəkəti, xeyri də sənsən -
Çoban, salamat qal, sağ-salamat qal!

## Göy göl

Çiskinli bir gündə gəldim bu yerə,
Dumanda görünməz dumandı Göy göl.
Tənha qayalara, lal meşələrə
Zülmət gecələrdə hayandı Göy göl.

Bir səhər gördüm ki, durulub yatır,
Kəpəzin dibində burulub yatır.
Qovulan ceyran tək yorulub yatır,
Daş atdım, diksinib oyandı Göy göl.

Döşünü qayıqlar düymə tək bəzər,
Dedim, bu görkəmlə Xəzərə bənzər -
Qızını yaylağa köçürüb Xəzər;
Baxdı, cilvələndi, nazlandı Göy göl.

Yel əsdi, yarpaqlar suya töküldü,
Göy çitə tünd sarı güllər tikildi...
Buludla ağladı, günəşlə güldü,
Deyəsən bir kövrək insandı Göy göl...

## Etiraf

Bilmirəm neylədim öz əsrimdə mən,
Neylədim-gələcək nəsil deyəcək.
Bu günün ətrini nəğmələrimdən
Sabaha aparan nəsim deyəcək.

Hünərim çox olub özüm biləni,
Günahım ondan da çox olub hələ.
Bir gödək ömrümdə bir ailəni
Yarıda bilmədim məhəbbətimlə.

Bəzən bir səhvimə yüz tənbeh yedim,
Çırpınıb düzəldim, görən olmadı.
Böyük bir işimə mükafat nədir,
Bir çimdik "sağ ol" da verən olmadı.

Yazmışam hər şeyi könül naməmə,
Bircə bu günahım bağışlanacaq.
Neylədim - Vətəni sevmək naminə,
Ucaltmaq naminə elədim ancaq...

## İki səs

Yenə də ağ varaq gərəkdir mənə,
Yazıb-pozduqlarım xoşuma gəlmir.
Neçə söz ələyib, seçsəm də yenə
Qəlbim istəyən söz başıma gəlmir.

Könül sevdiyini sevəsən gərək,
Kiçik bir şeir də könül varıdır.
Bu axşam bayırda at çapan külək
Sanki xəyalımın qanadlarıdır.

Ürəyim söz üstə yanır bayaqdan,
Ömrünü şeirə ver, şeirə qat deyir.
Anamsa dillənib qonşu otaqdan,
- Oğul, dincəl, - deyir - oğul, yat-deyir.

Ürəkdən nur alır hər ev, hər ocaq,
Onunmu səsinə qulaq asım mən.
Ana yuxusuna haram qataraq,
Bəs necə düşünüm, necə yazım mən?

Anam bilməyir ki, şair olan kəs,
Odlu söz tapmayır oda yanmasa,
Bir də ki, şairə şair deyilməz
Hamıdan gec yatıb, tez oyanmasa.

Oğul dincliyini axtarır ana,
O bilmir bir dolan buluddur ürək -
Minillik bir yuxu versən də ona,
Yenə boşalmasa dincəlməyəcək.

Ürəyim söz üstə yanır bayaqdan,
Ömrünü şeirə ver, şeirə qat deyir.
Anamsa dillənib qonşu otaqdan,
- Oğul, dincəl, deyir, - oğul, yat, - deyir.

İki səs şairi çağırır bu dəm,
Necə yuxulayım, necə yazım mən...
Boşal kağız üstə, boşal, ey sinəm,
Qoy iki səsə də qulaq asım mən!

## Nə bilim

Səndən mənə bir ömürlük xatirə,
Məndən sənə nə qalacaq, nə bilim?
Çətin bir də: daş üstə daş bitirəm,
Niyə uçdu bu qalacıq, nə bilim…

Damağımda bal sevdanın turş adı…
Uşaq ağlım inadını qurşadı.
Nə hönkürdü bu naqafil gurşadı?
Kimə dedim, - dedi, - ancaq: "nə bilim!"

Günlər mənə gün yazmağı unutdu,
Gülüm, günüm güllərimi qurutdu.
Bu oyunda kim uduzdu, kim uddu,
Peşimanı kim olacaq, nə bilim?..

Mən Arazam, səsim tutqun Arazdı,
Ha çağırdım, ha yüyürdüm, ha yazdım.
İndi daha qaynar təbim ayazdı,
İsinərmi bir od-ocaq, nə bilim…

# Aprel şəhidlərinin övladları üçün yay düşərgəsi təşkil edilir

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri çərçivəsində yeni bir istiqamət kimi "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin iştirakı ilə şəhid övladları üçün yay düşərgəsinin layihəsi həyata keçirilir.*

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Aprel şəhidlərinin uşaqlarından 23 nəfər, eləcə də azyaşlı olanların valideynlərindən ibarət 30 nəfər üçün İsmayıllı rayonundakı istirahət mərkəzlərindən birində yay düşərgəsi təşkil edilib.

İyulun 17-dən 26-dək davam edəcək yay düşərgəsinin təşkilində məqsəd həmin uşaqların yay tətilini daha maraqlı və yaddaqalan, səmərəli keçirmələrinə şərait yaratmaqdan ibarətdir.

İstirahət zamanı uşaqlar üçün maraqlı və əyləncəli oyunlar, viktorinalar təşkil ediləcək. Həmin bölgənin mədəni-tarixi yerlərinə ekskursiyaların, intellektual yarışların və s. keçirilməsi də nəzərdə tutulur.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində nizamnamədən kənar münasibətlər zəminində daha bir cinayət baş verib.

Ön xətt bölmələrindən birində, döyüş postunda xidmət edən əsgər Molkon Moliqiryan xidmət yoldaşları tərəfindən vəhşicəsinə döyülüb. Əvvəl əsgərin guya xəstə olduğu bildirilsə də, sonradan valideynlərinin şikayəti və Ermənistan Müdafiə Nazirliyindən yüksək vəzifəli generalın zəng edərək işə qarışması ilə komandanlıq məcbur qalaraq əsgəri hərbi hospitala göndərib.

Həkimlər əsgəri müayinə edərkən döyüldüyünü aşkar ediblər. Hadisə ilə bağlı prokurorluğa məlumat verilib.

Faktla bağlı və hadisəni gizlətməyə çalışan vəzifəli şəxslər barədə cinayət işi açılıb, araşdırma davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində yerlibazlıq və nizamnamədənkənar fəaliyyət səbəbindən tez-tez cinayət hadisələri qeydə alınır.

Ermənistanlılarla qarabağlılar arasında növbəti kütləvi davada iştirak edən hərbi qulluqçular Tatul Karapetyan, Narek Papoyan və Harut Petrosyan Ağdərə hərbi prokurorluğuna aparılıblar.

Cinayət işinin istintaqını aparan müstəntiq Hovik Sarkisyanın dediyinə görə adları çəkilən hər üç hərbi qulluqçu həm davanın səbəbkarı kimi, həm də xidmət yoldaşlarına xəsarət yetirməkdə təqsirləndirilirlər.

Faktla bağlı istintaq davam edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Əzimzadə Elvin Rauf oğluna 2001-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 529
Nüsxə 3950